# Gədəbəy tərəqqi və inkişaf yolundadır

Gədəbəy rayonunda 2019-cu ilin sosial-iqtisadi inkişafın yekunlarına və 2020-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş ümumrayon hesabat yığıncağı keçirilmişdir.



Hesabat yığıncağında Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsi müdirinin müavini Niyaz Əliyev və məsul işçisi Orxan Mürsəlov, idarə, müəssisə və təşkilatların rəhbərləri, KİV və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Əvvəlcə Gədəbəy Rayon İcra Hakimiyyəti "Operativ Xidmət Mərkəzi"nin təqdimatı olmuşdur.

Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstələri qoyaraq, ümummilli liderin əziz xatirəsini ehtiramla yad ediblər. Hesabat yığıncağına dəvət olunanlar Heydər Əliyev Mərkəzinin foyesində 2019-cu ildə görülmüş işlərə dair hazırlanmış fotostendlərlə tanış olmuş, Gədəbəydə istehsal olunan məhsulların sərgisinə baxmışlar.

Daha sonra Gədəbəy rayonunun sosial-iqtisadi inkişafı ilə bağlı təqdim edilən videoçarxı izləmişlər.

Azərbaycanın Dövlət Himni səsləndikdən sonra Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Mustafayev hesabat məruzəsi ilə çıxış edərək bildirdi ki, Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi son 16 ildə iqtisadi, siyasi, mədəni, sosial və digər sahələrdə əldə olunan uğurlu nəticələr, inkişaf göstəricilərinin davamlı olaraq yüksəlməsi aparılan islahatların real həyatda təsdiqini özündə ifadə edir.

2019-cu ildə Gədəbəy rayonunda Ümumi Daxili Məhsul istehsalının həcmi 574,0 milyon manat olmuşdur ki, bu da ötən illə müqayisədə 31,6 milyon manat və ya 5,8 faiz çoxdur. Rayon üzrə sənaye məhsulu istehsalı 171,0 milyon manat təşkil etmiş, sənaye məhsulunun ümumi həcmində dövlət sektorunun xüsusi çəkisi 1,5 % olmuşdur.

Rayon iqtisadiyyatının əsasını əkinçilik və heyvandarlıq təşkil etdiyi üçün bu sahənin inkişaf etdirilməsi istiqamətində zəruri işlər aparılaraq məhsul istehsalçılarına lazımi dəstək verilmiş və müvafiq köməkliklər göstərilmişdir. 2019-cu il ərzində rayonda 10 min 377 hektar kartof, 1813,8 hektar buğda, 191 hektar arpa, 240 hektar kələm, 79,4 hektar yerkökü, 9 hektar qarğıdalı, 75 hektar çuğundur, 90,2 hektar digər tərəvəz məhsulları və təcrübə məqsədilə 10 hektar tütün olmaqla ümumilikdə 12 min 885,4 hektar əkin aparılmışdır.

Sahələrdən 118 min 297 ton kartof, 5 min 351 ton buğda, 325 ton arpa, 39,6 ton qarğıdalı, 3 min 456 ton kələm, 1125,2 ton yerkökü, 3,4 ton quru tütün və 1473,5 ton digər tərəvəz məhsulları yığılmış, orta məhsuldarlıq hər hektara kartof, buğda və tərəvəz sahəsində müvafiq olaraq 114, 29,5 və 163,3 sentner təşkil etmişdir. 2020-ci ilin məhsulu üçün 2243 hektar buğda, 90 hektar arpa olmaqla ümumilikdə 2333 hektar sahədə payızlıq səpin aparılmışdır. Hesabat ilində iribuynuzlu malqaranın baş sayı 45 min 233, qoyun və keçilərin baş sayı 233 min 329 olmuş, diri çəkidə 69,3 min sentner ət, 478,8 min sentner süd və 5,6 min sentner yun istehsal edilmişdir.

Ötən ildə də Gədəbəy rayonunda yol infrastrukturunun qurulması ilə bağlı layihələr davam etdirilmişdir. Belə ki, Arıqdam-Söyüdlü-Soyuqbulaq (22,2 km) və Gədəbəy-Novosaratovka-Qaravəlilər (38 km)-İsalı-Zamanlı (23,48 km) avtomobil yollarının o, cümlədən Çalburun kəndində Qarıkənd-Miskinli-Çalburun avtomobil yolu üzərindəki körpünün tikintisi başa çatmışdır.

Rayonun 82 ümumtəhsil məktəblərində 10 min 690 nəfər şagirdin təlim-tərbiyəsi ilə 1530 nəfər pedaqoji işçi məşğul olmuşdur. 2018-2019-cu tədris ilində məktəbin 11-ci sinfini 649 nəfər bitirmiş, onlardan 368 nəfəri və ya 50,6 faizi ali məktəblərə qəbul olmaq üçün sənəd vermiş və 222 nəfər ali məktəblərə qəbul olmuşdur. Qəbul olanlar məzunların 34,2 faizini, sənəd verənlərin isə 60,3 faizini təşkil etmişdir. Ali məktəblərə qəbul olanların 31 nəfəri 500-dən, 10 nəfəri isə 600-dən yuxarı bal toplamışdır.

Rayonda əhaliyə 121 çarpayılıq Akademik Zərifə Əliyeva adına Gədəbəy Mərkəzi Rayon Xəstəxanası, 5 kənd xəstəxanası, 19 həkim, 25 tibb məntəqəsi, Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən tibbi xidmət göstərilir. İnfrastrukturun qurulması məqsədilə atılan addımlar nəticəsində rayonun Zəhmətkənd, Şahdağ, Çalburun kəndlərində yeni tibb məntəqəsi tikilmiş, Arıqıran kəndindəki həkim məntəqəsi əsaslı təmir edilmişdir. Biz inanırıq ki, qarşıdakı dövrdə səhiyyə sahəsində icbari tibbi sığortanın tətbiqi nəticəsində tibb xidmətinin keyfiyyətində dönüş yaranacaqdır.



2019-cu ildə ölkəmizdə ilk dəfə olaraq Gədəbəy rayonunda "Milli Yaylaq Festivalı" keçirilmişdir. Gədəbəy Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Miskinli yaylağında keçirilən festivalın əsas məqsədi Azərbaycan xalqının zəngin və çoxəsrlik mədəni irsinin, yüz illərlə formalaşmış yaylaq və elat mədəniyyətinin, unikal mədəniyyət nümunələrinin və tarixi abidələrinin nümayiş etdirilməsi və ərazinin turizm potensialının üzə çıxarılmasından ibarət olmuşdur. Ötən ildə Gədəbəy rayonunda ekoloji tədbirlərin keçirilməsi davam etdirilmişdir. Turizm imkanları geniş olan rayonda yaşıllaşdırma və ağacəkmə kampaniyaları ənənəvi hal almışdır. "Nəsimi ili" çərçivəsində Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bir gündə 650 min ağac əkilməsi ilə bağlı təşəbbüsünə qoşularaq 5 min ədəd, eyni zamanda 10 milyonuncu vətəndaşımızın dünyaya gəlməsi münasibətilə rayonun bütün yaşayış məntəqələrində o, cümlədən magistral avtomobil yollarının kənarlarında 10 mindən çox müxtəlif növ ağaclar əkilmiş və onların qorunması üçün mühafizə zolaqları salınmışdır.

İl ərzində vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə RİH-in göstərdiyi xidmətləri vahid məkanda birləşdirən "Operativ Xidmət Mərkəzi" fəaliyyətə başlamışdır. Mərkəzdə vətəndaşların müraciətləri üçün yüksək şəraitlə yanaşı, "164" nömrəli "Qaynar xətt" yaradılmış və səyyar xidmət məqsədilə avtomobillə təmin edilmişdir.

Hesabat yığıncağında Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsi müdirinin müavini Niyaz Əliyev, könüllü Aysun Knyazlı və başqaları məruzə ətrafında çıxış etdikdən sonra açıq mikrofon qarşısında yerdən səsləndirilən müraciət və təkliflər dinlənilib, qaldırılmış məsələlər barədə tədbirlər görülməsi üçün aidiyyəti üzrə tapşırıqlar verilib.

Hesabat yığıncağında rayonun ictimai-siyasi və mədəni həyatında fəal iştirakına görə bir qrup şəxslər rayon icra hakimiyyəti başçısı tərəfindən fəxri fərmanla təltif edilib və onlara təşəkkür elan olunub.

Hesabat yığıncağının sonunda iştirakçılar adından ölkə Prezidenti cənab İlham Əliyevə müraciət qəbul edilib.

**Vəli VƏLİYEV,**
**"Respublika".**